Ədəbiyyat QƏZETİ

# Yazıçı Tural Anaroğlunun 60 yaşına



## Tural ANAROĞLU - 60

Hörmətli Tural Anaroğlu Sizi görkəmli ictimai xadim, yazıçı-jurnalist, rəssam, Fövqəladə və Səlahiyyətli səfiri 60 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1964-cü ildə iyun ayının 9-da, Bakı şəhərində ziyalı ailəsində anadan olubsunuz.

1981-ci ildə Azərbaycan Dövlət Universitetinə (indiki BDU) daxil olub. Universitetin Şərqşünaslıq fakültəsini bitirmisiniz. Ərəbşünas və diplomatsınız.

Diplomatiyaya gəlməzdən əvvəl jurnalistika sahəsində çalışıbsınız.

1984-1985-ci illərdə SSRİ Müdafiə Nazirliyinin xətti ilə Liviya Ərəb Xalq Cəmahiriyyəsində ərəb dili tərcüməçisi vəzifəsində, 1987-ci ilin avqust-dekabr aylarında Azərbaycan SSR EA-nın Tarix İnstitutunda baş laborant işləyibsiniz.

1988-1989-cu illərdə SSRİ Texniki Peşə Nazirliyinin xətti ilə SSRİ-nin Suriya Ərəb Respublikasındakı Səfirliyinin İqtisadiyyat müşaviri aparatında tərcüməçi, 1990-1991-ci illərdə Azərbaycan Mədəniyyət Fondunun Xarici əlaqələr şöbəsinin müdiri, 1991-1998-ci illərdə Azərbaycan Resplikasının XİN-də attaşe, ikinci katib, birinci katib, operativ informasiya şöbəsinin müdiri vəzifələrində çalışıbsınız.

1994-cü ildə Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində Ali Diplomatik Akademiyasının xüsusi hazırlıq kurslarını fərqlənmə diplomu ilə bitirib, 1994-1997-ci illərdə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyində birinci katib, 1997-1998-ci illərdə AR XİN İnformasiya İdarəsinin operativ informasiya şöbəsinin müdiri, 1998-2005-ci illərdə Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyinin (AZƏRTAC) Türkiyədəki və eyni zamanda Yaxın Şərq ölkələri üzrə xüsusi müxbiri vəzifəsində işləyibsiniz. Bununla yanaşı AZƏRTAC-ın rəhbərliyi ilə razılaşdırılmış şəkildə 2000-2005-ci illərdə ABŞ-ın "Radio Free Europe/Radio Liberty"-nin rus dilində verilişlər redaksiyasının Türkiyədə xüsusi müxbiri və Türkiyənin "Ortadoğu" qəzetinin siyasi şərhçisi olubsunuz. 2005-ci ildə Türkiyənin nüfuzlu Mərmərə Beynəlxalq Strateji Araşdırmalar Fondu tərəfindən "İlin Jurnalisti" mükafatına layiq görülübsünüz. Türkiyənin TRT-Radio ve Televiziya qurumu haqqınızda sənədli film çəkmiş, bu filmi ingilis və alman dillərində tərcümə olunaraq 30-dan artıq xarici ölkədə yayımlanıb.

2005-2006-cı illərdə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyinin müşaviri, 2006-2009-cu illərdə Azərbaycan Respublikasının Rumıniyadakı Səfirliyinin müşaviri vəzifəsində işləyib. 2009-2010-cu illərdə XİN-nin İkinci (Şərq) Ərazi İdarəsinin rəis müavini vəzifəsində işləyibsiniz. 2010-cu il Azərbaycan Respublikası Prezidentinin 26 iyun tarixli Sərəncamı ilə sizə Fövqəladə və Səlahiyyətli Səfir diplomatik ranqı verilib. 2010-2015-ci illərdə Azərbaycan Respublikasının Küveyt Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri vəzifəsində işləyibsiniz. Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri, eyni zamanda Sudan Respublikasında səfir və Ərəb Dövlətləri liqasında müşahidəçi vəzifələrində işləyibsiniz.

2019-cu ildə III dərəcəli "Vətənə xidmətə görə" ordeni və ARXİN 100 illiyi medalı ilə təltif olunubsunuz.

2022-ci ildən Azərbaycan Respublikasının Əlcəzair Xalq Demokratik Respublikasında Fövqəladə və Səlahiyyətli Səfirisiniz.

Peşəkar diplomat olaraq rus, ərəb, türk və ingillis dillərini bilirsiniz.

"Tənha mələk", "Evləri köndələn yar, evləri göydələn yar", "Yad Planetli" bədii kitablarının, 50-dən çox rəsm əsərinin müəllifisiniz. Küveyt, Misir, Azərbaycanda rəsm əsərlərindən ibarət fərdi sərgiləriniz keçirilib.

Hörmətli Tural Anaroğlu - sizi 60 illik yubileyiniz münasibətilə bir daha təbrik edir, sizə möhkəm cansağlığı, işlərində və yaradıcılığında yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**